Tədbirdə təhsil naziri Mikayıl Cabbarov, fövqəladə hallar naziri Kəmaləddin Heydərov, BP-nin Azərbaycan-Türkiyə-Gürcüstan regionu üzrə prezidenti Qordon Birel, YUNİSEF-in Azərbaycan nümayəndəliyinin rəhbəri Mark Herevard və digər qonaqlar iştirak ediblər.

Qeyd edək ki, layihə çərçivəsində yeni, yüksək effektivliyə malik hərtərəfli, "uşaqların mənafeyini düşünən" məktəb modelləri hazırlanacaq. Həmin məktəblərdə erkən dövrdə inkişaf, inkluziv təhsil, fəlakət riskinin azaldılması, sanitariya və gigiyena sahələrində müxtəlif nümunəvi modellər hazırlanaraq sınaqdan keçiriləcəkdir. Həmçinin, yaradılması nəzərdə tutulan Ailə Təhsil Mərkəzləri vasitəsilə bir sıra zəruri sosial xidmətlər ailələrə çatdırılacaqdır. Layihəyə uyğun olaraq, infrastrukturun inkişafı, kurikulumların ehtiyaclara uyğunlaşdırılması, normativ-hüquqi bazanın təhlilinin aparılması və digər zəruri dəyişikliklərin edilməsi də nəzərdə tutulub.

Mərasimin sonunda Təhsil Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və YUNİSEF arasında "Təhsil sahəsində tərəfdaşlar" layihəsi çərçivəsində əməkdaşlığa dair birgə Fəaliyyət Planı imzalanıb.